*Elmi Tədqiqat*
May 2026, Cild: 6, Sayı: 5, s. 132–136
*Scientific Research*
May 2026, Volume: 6, Issue: 5, pp. 132–136
DOI: https://doi.org/10.36719/2789-6919/58/132-136

# Azərbaycanın Xəzərətrafı ölkələrlə münasibətlərində Xəzərin statusu problemi

**Aygün Babayeva**

***Xülasə.*** *Xəzər dənizi, dünya üzrə ən böyük daxili su hövzəsi olaraq, yalnız coğrafi baxımdan deyil, həm də beynəlxalq hüquq və siyasət baxımından mühüm strateji əhəmiyyətə malikdir. Xəzərin hüquqi statusu problemi Xəzərətrafı ölkələr – Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran arasında çoxsaylı hüquqi, siyasi və iqtisadi mübahisələrə səbəb olmuşdur. Bu ölkələr 1991-ci ildən sonra müstəqilliklərini bərpa etdikdən sonra, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi daha da mürəkkəbləşmişdir.*

*Məqalədə Xəzər dənizinin statusu məsələsinin tarixi inkişafı və Xəzərətrafı ölkələr arasında mübahisələrin səbəbləri araşdırılmış, 1990-cı illərdən etibarən enerji ehtiyatlarının paylaşılması ilə bağlı yaranan çətinliklər və bu sahədə hüquqi məsələlər geniş şəkildə müzakirə edilmişdir. Ayrıca, Xəzər dənizinin iqtisadi potensialı və beynəlxalq ticarətdəki rolu nəzərdən keçirilmişdir. Son olaraq, 2018-ci ildə imzalanan Xəzər dənizinin hüquqi statusuna dair sazişin əhəmiyyəti və gələcəkdə bu sazişin necə inkişaf edə biləcəyi barədə fikir yürüdülmüşdür.*

*Bu məqalə, Azərbaycanın Xəzərətrafı ölkələrlə münasibətlərində Xəzərin statusu məsələsinin hüquqi və siyasi aspektlərini dərindən araşdıraraq, bu mövzunun ölkənin xarici siyasətinə təsirini və gələcəkdəki perspektivlərini təqdim edir.*

***Açar sözlər:*** *Xəzər dənizi, Xəzərətrafı ölkələr, Azərbaycanın xarici siyasəti, beynəlxalq hüquq, su hövzələri, hüquqi mübahisələr, sərhəd bölgələr*

---

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: aygun.m.babayeva@sosial.gov.az
Daxil oldu: 2 Fevral 2026; Qəbul edildi: 5 May 2026; Onlayn dərc edildi: 30 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Issue of the Caspian Sea Status in Azerbaijan's Relations with the Littoral States

**Aygun Babayeva**

***Abstract.*** *The Caspian Sea, being the world's largest enclosed water body, holds significant geopolitical and economic importance for the five littoral states – Azerbaijan, Russia, Kazakhstan, Turkmenistan, and Iran. The issue of its legal status has been a longstanding source of legal, political, and economic disputes among these countries. Following the dissolution of the Soviet Union in 1991, the determination of the Caspian's legal status became even more complex.*

*This article investigates the historical development of the Caspian Sea's status issue and explores the reasons for disputes between the littoral states, particularly concerning the distribution of energy resources and the related legal challenges. Furthermore, the economic potential of the Caspian Sea and its role in international trade are examined. Lastly, the significance of the 2018 Caspian Sea legal status agreement is discussed, with a focus on how this agreement might evolve in the future. This paper provides an in-depth analysis of the Caspian Sea status issue in Azerbaijan's relations with its littoral neighbors, examining its legal, political, and economic dimensions and assessing its impact on Azerbaijan's foreign policy and future prospects.*

**Keywords:** *Caspian Sea, Caspian Littoral States, Azerbaijan's foreign policy, international law, water bodies, legal disputes, border regions*

---

Baku Slavic University, Master's student, Baku, Azerbaijan
Email: aygun.m.babayeva@sosial.gov.az
Received: 2 February 2026; Accepted: 5 May 2026; Published online: 30 May 2026
© Author(s) 2026. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Xəzər dənizi, beynəlxalq su hövzələri və ticarət yolları baxımından müstəsna bir əhəmiyyətə malikdir. Bu su hövzəsi, dünyada ən böyük daxili su hövzəsi olmaqla yanaşı, həm də beş müxtəlif ölkənin ərazisini əhatə edir: Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran. Xəzər dənizinin statusu problemi isə bu ölkələr arasında mühüm bir mübahisə mövzusu olmuşdur. Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi, yalnız su hövzəsinin sərhəd problemləri ilə bağlı deyil, həm də bu ölkələrin enerji ehtiyatlarının paylanması, ətraf mühitin qorunması, gəmiçilik və hərbi təhlükəsizlik kimi məsələlərə də təsir göstərir.

Xəzər dənizinin hüquqi statusu məsələsinin həlli beş sahilyanı dövlətin diplomatik səyləri nəticəsində mərhələli şəkildə irəliləmişdir. Mövcud fikir ayrılıqlarına baxmayaraq, bu ölkələr regionda əməkdaşlığın inkişafına maraq göstərmiş, balanslaşdırılmış yanaşma isə xüsusilə Azərbaycan tərəfindən nümayiş etdirilmişdir. Azərbaycanın müasir diplomatiya tarixində məqsədyönlü siyasət çərçivəsində Xəzərin statusunun müəyyənləşdirilməsi beynəlxalq əhəmiyyət daşıyan mühüm məsələlərdən biri kimi çıxış edir. Rəsmi Bakı öz mövqeyində vurğulamışdır ki, artıq tərəflərin bir araya gələrək mövcud vəziyyəti və perspektiv imkanları açıq və səmimi şəkildə müzakirə etməsinin vaxtı yetişmişdir və bu prosesdə həm regional, həm də beynəlxalq təşkilatların fəal iştirakı zəruridir.

## Tədqiqat

SSRİ-nin süqutundan sonra Xəzər dənizinin sahilində yeni müstəqil dövlətlərin formalaşması bu hövzənin hüquqi statusu məsələsini beynəlxalq müstəviyə çıxardı və Xəzəryanı ölkələr arasında intensiv müzakirələrə səbəb oldu. Sovet İttifaqının dağılması Avrasiya məkanında yeni etnik, siyasi və ərazi xarakterli münaqişələrin yaranmasına zəmin yaratdı. Bu kontekstdə Xəzər regionu müxtəlif dövlətlərin ərazi və siyasi iddialarının toqquşduğu mühüm geosiyasi məkana çevrildi (Hüseynov, 2020). Beləliklə, müasir beynəlxalq münasibətlər sistemində Xəzərin və onun ətrafında formalaşan iqtisadi-siyasi maraqlar kompleksinin öyrənilməsi həm nəzəri, həm də praktik baxımdan xüsusi aktuallıq qazandı.

Uzun müddət ərzində Xəzərin hüquqi rejimi Rusiya ilə İran arasında imzalanmış müqavilələrlə tənzimlənirdi. Həmin razılaşmalara əsasən, Xəzər faktiki olaraq bu iki dövlətin təsir dairəsinə bölünmüş və digər ölkələrin bu su hövzəsindən istifadəsi məhdudlaşdırılmışdı. Sovet dövründə də

tərəflər arasında yeni sazişlər bağlansa da, Xəzərin hüquqi statusu dəyişməz qalmışdı və bu vəziyyət təxminən 70 il davam etmişdir. SSRİ dağıldıqdan sonra isə regionda beş müstəqil dövlət – Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran – Xəzər dənizinə çıxış əldə edən beynəlxalq hüquq subyektlərinə çevrildi. Bu yeni geosiyasi reallıq Xəzərin hüquqi statusu məsələsini hər bir dövlətin milli maraqları prizmasında yenidən gündəmə gətirdi. Əslində, problem bir tərəfdən əvvəlki təsir dairəsini qorumağa çalışan qüvvələrlə, digər tərəfdən isə müstəqillik əldə etmiş dövlətlərin iqtisadi və siyasi maraqları arasında yaranmış ziddiyyətlərin nəticəsi kimi formalaşmış və nəticədə regionda geosiyasi tarazlığı müəyyən edən əsas amillərdən birinə çevrilmişdir.

2001-ci ilin əvvəlindən etibarən Xəzərin hüquqi statusu məsələsinin həlli istiqamətində sahilyanı dövlətlərin fəaliyyəti daha da intensivləşmişdir. Həmin ilin mart ayında İran İslam Respublikasının prezidenti Mohammad Khatami Moskvaya etdiyi dörd günlük səfər zamanı Xəzərin statusu problemini əsas müzakirə mövzularından biri kimi diqqətdə saxlamışdır. Səfər çərçivəsində tərəflər arasında imzalanan bəyannamədə qeyd olunurdu ki, status məsələsi üzrə ortaq mövqenin formalaşdırılması üçün əməkdaşlıq genişləndiriləcək və çoxtərəfli görüşlərin sayı artırılacaqdır. Eyni dövrdə Rusiya Federasiyasının prezidenti Vladimir Putin ilə Türkmənistan prezidenti Saparmurat Niyazov arasında aparılan danışıqlar nəticəsində Xəzər sammitinin Türkmənistanda keçirilməsi barədə razılıq əldə edilmişdir (Süleymanov və Məmmədov, 2010; Həsənov, 2002).

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində mühüm addımlardan biri də 23 sentyabr 2002-ci ildə Azərbaycan prezidenti Heydər Əliyevin Moskvaya səfəri zamanı atılmışdır. Səfər çərçivəsində Azərbaycan və Rusiya prezidentləri arasında Xəzərin dibinin sektorlara ayrılmasını nəzərdə tutan müqavilə imzalanmış və bununla da Azərbaycanın Xəzərdəki şimal sərhədləri tam şəkildə dəqiqləşdirilmişdir (Bağırov, 2008).

Eyni tarixdə keçirilən mətbuat konfransında çıxış edən Heydər Əliyev bildirmişdir ki, üç Xəzəryanı dövlət artıq ümumi mövqe formalaşdırmışdır və bu yanaşma digər sahilyanı ölkələr üçün də nümunə ola bilər. O vurğulamışdır ki, uzun illər davam edən müzakirələrdən sonra əldə olunan variant beynəlxalq hüququn prinsiplərinə və orta xətt metoduna uyğun hesab edilir (Əliyev, 2015).

Azərbaycan Xəzərin hüquqi statusu məsələsində ardıcıl və praqmatik mövqe nümayiş etdirmişdir. Ölkə aşağıdakı prinsiplərə üstünlük vermişdir:
- Milli sektorların müəyyən edilməsi;
- Enerji resurslarının suveren şəkildə istismarı;
- Regional əməkdaşlığın təşviqi.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji layihələri – xüsusilə "Əsrin müqaviləsi" – Xəzərin hüquqi statusunun praktiki olaraq sektorlar üzrə bölünməsini sürətləndirmişdir (Yusifov, 2015; Məmmədov, 2015).

Xəzərin hüquqi statusu ilə bağlı müxtəlif yanaşmalar mövcud olmuşdur:
*"Dəniz" yanaşması.* Bu yanaşmaya görə, Xəzər beynəlxalq dəniz hüququna əsasən bölüşdürülməlidir. Bu mövqe əsasən Azərbaycan və Qazaxıstan tərəfindən dəstəklənmişdir.
*"Göl" yanaşması.* İran və qismən Rusiya əvvəlcə Xəzərin göl kimi qəbul olunmasını və bərabər bölüşdürülməsini təklif edirdi (Zonn, 2005). Bu yanaşmaya görə, Xəzər ümumi istifadə obyektidir və resurslar ortaq şəkildə idarə olunmalıdır. İran və müəyyən dövrlərdə Türkmənistan bu mövqeyi müdafiə etmişdir (Əliyev, 2017; Kazımov, 2019).

*Sektor bölgüsü prinsipi.* Azərbaycanın müdafiə etdiyi əsas model sahilyanı dövlətlərin milli sektorlara malik olması idi. Bu model enerji resurslarının işlənməsi üçün daha əlverişli hesab olunurdu.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Xəzərin hüquqi statusunun müəyyən edilməsi istiqamətində fəal diplomatik siyasət yürütmüşdür. Xüsusilə "Əsrin müqaviləsi"nin (1994) imzalanması Xəzərin enerji resurslarının beynəlxalq səviyyədə istifadəsinə təkan vermişdir. Azərbaycanın mövqeyinin əsas prinsipləri aşağıdakılardır:

- Xəzərin milli sektorlara bölünməsi;
- Dənizin dibinin və səthinin hüquqi rejiminin fərqləndirilməsi;
- Enerji resurslarının müstəqil şəkildə işlənməsi hüququ;
- Regional əməkdaşlığın gücləndirilməsi.

Bu siyasət nəticəsində Azərbaycan Rusiya və Qazaxıstan ilə ikitərəfli sazişlər bağlayaraq öz sektorunun sərhədlərini müəyyənləşdirmişdir (Həsənov, 2018). 1990-cı illərdən etibarən Xəzərin statusu ilə bağlı çoxtərəfli danışıqlar başlamışdır. Bu danışıqlar uzun müddət davam etmiş və müxtəlif mərhələlərdən keçmişdir. Əsas mübahisə mövzuları: dənizin hüquqi statusu, enerji resurslarının bölüşdürülməsi, boru kəmərlərinin çəkilməsi, ekoloji təhlükəsizlik, hərbi iştirak məsələləri. Qeyd etmək lazımdır ki, Xəzər Konvensiyası Xəzəryanı dövlətlər arasında mövcud olan bütün problemləri tam aradan qaldırmır. Məsələn, vacib məsələlərdən biri olan düz çıxış xətlərinin müəyyən edilməsi qaydaları Konvensiyada öz əksini tapmayıb. Bundan əlavə, sənəddə Xəzərin su sahəsinin bölgüsü ümumi şəkildə müəyyənləşdirilsə də, təbii ehtiyatlarla zəngin və əsas mübahisə mövzusu sayılan dib və təkinin bölüşdürülməsi məsələsi tam həllini tapmayıb. Belə ki, Konvensiyanın 8-ci maddəsinə əsasən, Xəzərin dibinin və təkinin bölünməsi beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsipləri nəzərə alınmaqla, sahilyanı və qarşı-qarşıya yerləşən dövlətlər arasında bağlanacaq ikitərəfli və çoxtərəfli razılaşmalar vasitəsilə həyata keçirilməlidir. Yəni su səthinin bölgüsü Konvensiya ilə tənzimlənsə də, dib və təkinin bölüşdürülməsi gələcəkdə dövlətlər arasında əldə olunacaq əlavə razılaşmalardan asılıdır.

Beləliklə, bütün müsbət və çatışmayan cəhətləri ilə birlikdə Xəzər Konvensiyası regionda gərginliyin azaldılmasında mühüm rol oynayan, Xəzərin hüquqi statusunun və hüquqi rejiminin, Xəzəryanı dövlətlərin əsas hüquq və vəzifələrinin müəyyən edilməsində əsas hüquqi baza olan, tərəflərə bir çox məsələni konkret hüquqi sənədə dayanaraq həll etmək imkanı verən mühüm beynəlxalq hüquqi sənəddir (Əsgərov, 2024). Danışıqlar zamanı tərəflər arasında fikir ayrılıqları olsa da, tədricən kompromisə doğru addımlar atılmışdır.

**Nəticə**

Xəzərin statusu ilə bağlı mübahisələr xüsusilə Sovet İttifaqının dağılmasından sonra daha da dərinləşdi. Müstəqillik əldə edən yeni dövlətlər, Xəzər dənizinin hüquqi statusunu təkbaşına müəyyən etməyə çalışarkən, bir-birinin maraqlarını ziddiyyətli gördülər. Bu dövrün önəmli məsələlərindən biri, Xəzər dənizinin hüquqi vəziyyətinin necə müəyyənləşdiriləcəyinə dair razılaşmaların olmamış olması idi. Xəzərin statusunun təyin edilməsi, həm də regionun iqtisadi və siyasi sabitliyinə müsbət təsir göstərəcəkdir.

Xəzərin hüquqi statusu problemi Azərbaycan diplomatiyasının əsas istiqamətlərindən biri olmuşdur. Ölkə balanslaşdırılmış və praqmatik siyasət yürüdərək həm milli maraqlarını qorumuş, həm də regional əməkdaşlığa töhfə vermişdir. 2018-ci il Konvensiyası bu istiqamətdə mühüm nailiyyət olsa da, proses hələ də davam edir. Azərbaycan gələcəkdə də Xəzərin sülh, əməkdaşlıq və inkişaf məkanına çevrilməsi üçün fəal siyasət aparmağa davam edəcəkdir.

**Ədəbiyyat**

1. Bağırov, E. (2008). *Xəzər regionunda Azərbaycanın milli mənafeyinin prioritet istiqamətləri*. Elm.
2. Əliyev, H. (2015). *Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar*. Azərnəşr.
3. Əliyev, K. (2017). *Beynəlxalq hüquqda qapalı su hövzələrinin rejimi*. Hüquq ədəbiyyatı.
4. Əsgərov, N. (2024). *Xəzərin hüquqi statusunun konvensional təsbiti*. https://genprosecutor.gov.az/az/post/7447
5. Kazımov, F. (2019). *Xəzər Konvensiyası və regional əməkdaşlıq*. İqtisadiyyat nəşriyyatı.
6. Hüseynov, A. (2020). Xəzər dənizində sərhəd mübahisələri və hüquqi həllər. *Azərbaycan Dövlət Universitetinin Elmi Jurnalı, 3*(1), 89–101.
7. Həsənov, S. (2002). *Dövlətlərarası münasibətlərdə Xəzərin statusu məsələsi*. Elm.
8. Həsənov, Ə. (2018). *Azərbaycanın xarici siyasəti*. Şərq-Qərb.
9. Məmmədov, R. (2015). *Xəzər dənizinin hüquqi statusu*. Elm.
10. Süleymanov, Ə., Məmmədov, K. (2010). Xəzər regiounda təhlükəsizlik probleminə müxtəlif yanaşmalar. *Bakı Universiteti, Sosial-siyasi və Humanitar elmlər seriyası, 5*.
11. Yusifov, E. (2015). Xəzər regionunda enerji siyasəti və Azərbaycan. *Bakı Dövlət Universiteti nəşrləri*.
12. Zonn, I. (2005). *The Caspian Sea Encyclopedia*. Springer.